AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU YANINDA
KORRUPSİYAYA QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİ

# BÜLLETEN





2019-cu ilin birinci yarımili

*Vəsaitin hazırlanmasına rəhbərlik edən:*

**Kamran Əliyev.** Azərbaycan Respublikası Baş prokurorunun müavini- Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, II dərəcəli dövlət ədliyyə müşaviri

*Bülletenin hazırlanmasına məsul struktur qurum:*

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təşkilati və informasiya təminatı idarəsi

*Məsul katiblər:*

**Vüqar Əhmədli.** İdarə prokuroru, I dərəcəli hüquqşünas

**Pirayə Səmədzadə-Əliyeva.** İdarə prokuroru, II dərəcəli hüquqşünas

*Kompüter tərtibatı:*

**Rövşən İbadov.** İdarənin informasiya texnologiyalarının tətbiqi sektorunun müdiri

*Korrektor:*

**Ziya Novruzov.** İdarənin məsləhətçisi

*Dizayner:*

**Səttar Əliyev.** İdarənin mütəxəssisi.



**"Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır və aparılacaqdır. Bu işlərdə əli olan adamlar məsuliyyətə cəlb olunur, vəzifədən kənarlaşdırılır. Tam sağlamlaşdırma prosesi gedir və artıq keçən ilin timsalında biz gözəl nəticələri görə bilmişik."**

*İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən.*

Bakı şəhəri, 11 yanvar 2019-cu il

# MÜNDƏRİCAT



Ön söz. *Zakir Qaralov* ........ 5



Haqqımızda ........ 7



Korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ........ 8



I Baş İdarə 2019-cu ilin birinci yarımilində ........ 13

**1.1. Analitik fəaliyyət** ........ 13
1.2. Kadrlarımız ........ 14
1.3. Maarifləndirmə və ictimaiyyətin məlumatlandırılması ........ 15
1.4. Mövcud dinamika ........ 16



II Əməkdaşlıq ........ 17

2.1. Baş İdarədə təşkil edilən tədbirlər ........ 18
2.2. Xarici səfərlər ........ 25




III Fəaliyyət ........ 32

3.1. Qabaqlayıcı tədbirlər ........ 33
3.2. Əməliyyat-axtarış fəaliyyəti ........ 34
3.3. İbtidai istintaq və mütəxəssislərin fəaliyyəti ........ 34
3.4. Aktuallığı ilə seçilən bəzi cinayət işləri ........ 35



İnfoqrafika ........ 36



Həvəsləndirilmiş əməkdaşlarımız ........ 42

# ÖN SÖZ



Son illər ölkəmizdə həyata keçirilən köklü və tərəqqiyə istiqamətlənmiş məqsədyönlü siyasət nəticəsində cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılması daha da intensivləşmiş, sosial-iqtisadi inkişaf göstəricilərinin artan dinamikası fonunda hüquqi və demokratik dövlət quruculuğu, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və qanunun aliliyinin təmin edilməsinə yönələn proseslər geniş vüsət almışdır.

Ümummilli lider Heydər Əliyevin zəngin idarəçilik irsindən qaynaqlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilən bu siyasət nəticəsində mövcud mürəkkəb xarici iqtisadi mühitdə qlobal sosial-iqtisadi çağırışlara yüksək dayanıqlıq nümayiş etdirmiş ölkəmizin regionda və beynəlxalq miqyasda iqtisadi və siyasi mövqeləri daha da möhkəmlənmişdir.

Şübhəsizdir ki, daha yüksək hədəflərə nail olunması üçün dinamik sosial-iqtisadi islahatlarla yanaşı çevik və səmərəli idarəetmənin təmin edilməsi, ardıcıl hüquqi və institusional islahatların icra edilməsi, bu islahatlara və tərəqqiyə mane olan korrupsiya və sair neqativ halların tam aradan qaldırılması labüddür. Odur ki, bu məqsədlə korrupsiya hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi digər strateji məsələlər kimi daim diqqət mərkəzində

saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Sözsüz ki, uğurla gerçəkləşdirilən sistemli islahatlar paketinin vacib elementini təşkil edən 03 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın imzalanmasının əhəmiyyəti burada xüsusilə vurğulanmalıdır.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesinin sürətləndirilməsi və şəffaflığın artırılması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi məqsədilə imzalanmış bu Fərmanın icrası məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasına, dövlət xidmətlərinin, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmağa zəmin yaratmışdır.

Dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizədə instusional və qanunvericilik sahəsində görülən işlərə paralel olaraq beynəlxalq əməkdaşlıq və qarşılıqlı təcrübənin paylaşılması da xüsusi diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim böyük önəm verilməkdədir.

Məhz bu yöndə sərgilənməkdə olan siyasi iradə nəticəsində ölkəmizin Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və MONEYVAL Komitəsi, eləcə də digər beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilmiş, həm OECD-nin Anti-Korrupsiya Şəbəkəsinin, həm də GRECO-nun monitorinq mexanizmləri çərçivəsində verilmiş tövsiyələr ölkəmiz tərəfindən uğurla yerinə yetirilmişdir.

Bütün bu müsbət göstəricilər öz növbəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən üzərinə qoyulmuş vəzifələrin uğurla və daha səmərəli icra edilməsində, eləcə də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynamışdır. Baş İdarə prokurorluq orqanlarının digər qurumları ilə birlikdə bütün səylərini ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəltmişdir.

Baş İdarə tərəfindən hazırlanmış bu Bülletendə 2019-cu ilin I yarımilliyində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunvericilik və institusional tədbirlərlə yanaşı, Baş İdarənin həmin dövr ərzində fəaliyyəti barədə ətraflı məlumatlar əks olunmuşdur.

**Zakir Qaralov**
**Azərbaycan Respublikasının Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

# HAQQIMIZDA



Korrupsiya ilə mübarizə üzrə ixtisaslaşmış cinayət təqibi orqanı olan Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi korrupsiyaya qarşı mübarizə sahəsində qabaqlayıcı və cəza tədbirlərinin vəhdəti prinsipinə uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya Əleyhinə Konvensiyanın 36-cı maddəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli Sərəncamı ilə yaradılmış, ötən müddət ərzində Baş İdarənin fəaliyyəti və strukturu daim təkmilləşdirilmiş, ştatı və səlahiyyətləri artırılmışdır.

Xüsusi qeyd edilməlidir ki, 2011-ci ildə Baş İdarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı, Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti də verilmiş, bu təcrübə Baş İdarənin fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırmışdır. Təsadüfi deyildir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Anti-Korrupsiya Şəbəkəsi tərəfindən bu qurum beynəlxalq aləmdə səmərəli anti-korrupsiya fəaliyyətinin nümunəvi modeli kimi tövsiyə edilmişdir.

2014-cü ildə Baş İdarə Prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmiş, Baş İdarənin Əsasnaməsində yeni dəyişikliklər edilərək strukturda 4 idarə və 3 şöbə yaradılmış, əməkdaşların ştat vahidi 100-dən 140-a çatdırılmışdır.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin səmərəli fəaliyyətini şərtlən-dirən əsas amillərdən biri Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya ilə sıx və işgüzar əlaqələrin qurulması və məlumat mübadiləsinin həyata keçirilməsidir. Bundan başqa Baş İdarə fəaliyyətini digər hüquq mühafizə orqanları və dövlət qurumları, eləcə də vətəndaş cəmiyyəti instututları ilə əlaqəli şəkildə qurur, beynəlxalq təşkilatlar və xarici dövlətlərin ixtisaslaşmış qurumları ilə səmərəli əməkdaşlıq edir. Qurumun fəaliyyəti ölkəmizdə və onun hüdudlarından kənarda yüksək qiymətləndirilməklə, bu müsbət göstəricilər İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Avropa Şurasının Korrupsiya Əleyhinə Dövlətlər Qrupu (GRECO) kimi təşkilatların hesabatlarında da öz əksini tapmışdır.

## Korrupsiyaya qarşı Mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)

**3. Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində tədbirlər** *(çıxarış)*

Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar olan Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın və Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əsasnamələrinin qəbul edilməsi;

## BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası

**Maddə 36**

İxtisaslaşmış orqanlar Hər bir İştirakçı Dövlət öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq, hüquqmühafizə tədbirləri vasitəsilə korrupsiya ilə mübarizə aparmaq üçün ixtisaslaşmış orqan və ya orqanların, yaxud şəxslərin mövcudluğunu təmin edir. Belə orqan və ya orqanların, yaxud şəxslərin öz funksiyalarını səmərəli surətdə və hər hansı kənar müdaxilə olmadan yerinə yetirməsi üçün, onlara İştirakçı Dövlətin hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq zəruri müstəqillik verilir. Belə şəxslər, yaxud belə orqan və ya orqanların əməkdaşları öz vəzifələrini yerinə yetirmək üçün lazımi peşəkarlığa və resurslara malik olmalıdırlar.

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVƏT SİYASƏSTİ

Əvvəlki dövrlərdə olduğu kimi 2019-cu ilin birinci yarımilində də korrupsiyaya qarşı mübarizə Azərbaycan Respublikasının prioritet istiqamətlərindən biri olmuşdur.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqində və digər çıxışlarında korrupsiya və rüşvətxorluğu uğurlu inkişafımızı əngəlləyən əsas bəlalar kimi qiymətləndirmiş və ötən illə müqayisədə bu sahədə əhəmiyyətli irəliləyiş əldə edildiyini xüsusi vurğulamışdır.

Bu sahədə mövcud olan qəti siyasi iradə eyni zamanda konkret əməli-praktiki addımlara müşayiət olunmuşdur.









Belə ki, Dövlət başçısı tərəfindən müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirilməsi və şəffaflığın artırılması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi məqsədilə 03 aprel 2019-cu il tarixdə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalanmaqla korrupsiya ilə mübarizə sahəsində aparılan mühüm institusional islahatlarda növbəti mütərəqqi addım atılmışdır. Həmin Fərmanın icrası məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasına, dövlət xidmətlərində ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmağa zəmin yaratmışdır.

Təqdirəlayiq haldır ki, artıq Fərmanın icrası

istiqamətində kompleks və sistemli tədbirlərin görülməsinə başlanılmışdır. Misal üçün göstərmək olar ki, islahatların Fərmanda nəzərdə tutulan komponentlərindən biri olan qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi aktlar üzərində hazırda hərtərəfli iş aparılır, habelə praktiki sahədə verilən tapşırıq və tövsiyələrin yerinə yetirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Belə ki, imzalanan normativ hüquqi aktlar paketinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa, Mülki-Prosessual, İnzibati-Prosessual və Cinayət-Prosessual məcəllələrə dəyişikliklərin edilməsini nəzərdə tutan qanunlar, habelə həmin qanunların tətbiqini təmin edən müvafiq sərəncam və fərmanlar daxil edilmişdir.

Bununla yanaşı, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər ixtisaslaşmış məhkəmələrin iki sisteminin – inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməlini formalaşdırmışdır. Qeyd edilən qanunlar qüvvəyə mindiyi gündən, yəni, 2020-ci il yanvarın 1-dən etibarən mövcud inzibati-iqtisadi məhkəmələr sistemi ləğv ediləcəkdir.

Sahibkarlıq sahəsində ixtisaslaşmış məhkəmələrin yaradılması Azərbaycanda mövcud azad biznes mühitinin inkişafına əlavə stimul verməklə bu sahəyə dövlət səviyyəsində verilən diqqətin təcəssümüdür.

Ümumiyyətlə, Fərmanda əks edilən müddəaları ümumiləşdirməklə belə nəticəyə gəlmək olar ki, ilk baxışdan bu mötəbər sənəd yalnız məhkəmə-hüquq sistemindən ibarət tənzimləmə dairəsinə malik akt təsiri bağışlasa da, mahiyyət etibarı ilə özündə iqtisadi, habelə vergi, gömrük və sosial siyasət məsələlərini qanunvericilik, instusional və praktiki vasitələrlə birləşdirən proqram xarakterli islahat konsepsiyasıdır.

Tənzimləmə metoduna görə məhkəmə-hüquq sisteminin hər bir aspektinə yeni yanaşma tətbiq edən bu sənədin icrasının məhkəmə hakimiyyəti ilə yanaşı, Ədliyyə, Vergilər və İqtisadiyyat Nazirlikləri, Vəkillər Kollegiyası, eləcə də Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası kimi ayrı-ayrı sahələrə məsul qurumlara tapşırılması və tövsiyə edilməsi



















sənədin sistemliliyi və konseptual xarakterini bir daha ortaya qoymaqla onun korrupsiyaya qarşı mübarizədə mühüm alət kimi çıxış edəcəyindən xəbər verir.

Həyata keçirilən genişmiqyaslı islahatların digər istiqaməti kimi milyonlarla vətəndaşa xidmət göstərilməklə dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasına mühüm töhfə verən,bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında mühüm rol oynayan “ASAN xidmət” mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 15 mərkəzə çatdırılması, habelə yarandığı gündən keçən qısa müddət ərzində bu xidmətə 27 milyondan

çox müraciət daxil olması, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən nadir layihə kimi DOST mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət və cəmiyyət arasında olan həmrəyliyin bariz nümunəsidir.

Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən uğurlu dövlət siyasətinin tərkib hissəsi kimi bu sahədə ixtislaşmış orqanlar olan Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti də diqqətdən kənar qalmamış, hər iki qurum tərəfindən qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilən fəaliyyət nəticəsində mühüm nailiyyətlərə imza atılmışdır.

2019-cu ilin birinci yarım ili ərzində də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri müəyyən edilmiş, təqsirli şəxslər ifşa edilmiş, korrupsiya hüquqpozmalarından əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlardan "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş bir sıra müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmiş, əlaqəli dövlət qurumları ilə birgə fəaliyyət nəticəsində vətəndaşların çoxsaylı müraciətlərinin müsbət həll olunması təmin edilmiş, eyni zamanda maarifləndirmə sahəsində kitab, bülleten, buklet və digər metodiki vəsaitlər nəşr olunmuş, kütləvi informasiya vasitələrində, televiziya kanallarında Baş İdarənin fəaliyyətini əks etdirən məlumatlar ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Dövlət başçısı cənab İlham Əliyevin fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim böyük önəm verilmişdir.

Dövr ərzində Beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlərin məntiqi nəticəsi olaraq ölkəmizin Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və MONEYVAL Komitəsi, eləcə də digər beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilmişdir.

Uğurlu nümunə kimi qeyd etmək olar ki, ötən il Avropa Şurasının MONEYVAL Komitəsinin 57-ci plenar iclası çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizin IV raund qiymətləndirilməsi üzrə növbəti tərəqqi hesabatı dinlənilməklə, Azərbaycan Respublikasında bu sahə beynəlxalq səviyyədə mövcud standartlara tam cavab verən sistem kimi qiymətləndirilmiş, MONEYVAL-ın tövsiyələrinin ölkəmiz tərəfindən müvəffəqiyyətlə yerinə yetirildiyi qənaətinə gəlinmişdir.

Həmçinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı üzrə 19-ci monitorinq görüşündə Şəbəkənin IV Monitorinq Raundu üzrə ölkəmizə dair verilmiş tövsiyələrin böyük qismində icrası istiqamətində əsaslı nailiyyətin əldə olunması barədə yekdil fikrə gəlinmiş və dövri hesabat qənaətbəxş qiymətləndirilərək qəbul edilmişdir.

Qeyd edilməlidir ki, bu mötəbər təşkilatlar tərəfindən ölkəmizə verilmiş tövsiyələrin böyük əksəriyyətinin uğurla icra edilməsinin təqdir edilməsi Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli fəaliyyətinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin növbəti bariz təcəssümüdür.

Bütün bunlar ölkə Prezidenti tərəfindən qarşısında qoyulmuş vəzifələrin uğurla və daha səmərəli icra edilməsinə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə geniş imkanlar yaratmışdır.

# BAŞ İDARƏ 2019-cu İLİN BİRİNCİ YARIMİLİNDƏ





















# I. BAŞ İDARƏ 2019-cu İLİN BİRİNCİ YARIMİLİNDƏ

## 1.1. ANALİTİK FƏALİYYƏT



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən dövrü ərzində bir neçə normativ hüquqi aktın, əmr və qaydaların layihələri hazırlanmış, habelə bir sıra normativ aktlara dair rəy və təkliflər verilmişdir.

Belə ki, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi məqsədilə Baş İdarə tərəfindən bir sıra tədbirlər görülmüş, Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar Məcəllələrində dəyişikliklər və digər bu kimi qanunvericilik layihələrinə dair təkliflər hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərmanından irəli gələrək Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, Ali Məhkəməsi və Baş Prokurorluğunun 05 aprel 2019-cu il tarixli 53-s nömrəli Sərəncamı ilə əlaqədar Baş Prokurorluğa irəli sürülmüş tövsiyələr çərçivəsində Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar Məcəllələrində dəyişikliklər edilməsi layihəsi hazırlanaraq aidiyyəti dövlət qurumuna təqdim edilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Baş prokurorunun 09.01.2015-ci il tarixli 10/2 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin reqlamentində dəyişikliklər edilməsi barədə 14 iyun 2019-cu il tarixli 10/46 nömrəli əmrinin layihəsi həmin idarə tərəfindən hazırlanmışdır. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində idarənin əməkdaşları fəaliyyət göstərərək qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi barədə təkliflər hazırlanaraq aidiyyəti qurumlara təqdim edilmişdir.

Bununla yanaşı, 01 iyun 2019-cu il tarixdən etibarən Azərbaycan Açıq Hökumət Platformasının Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası ilə birgə yeni Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət Planının hazırlanmasına başlayacağı planlaşdırılmışdır və Baş İdarənin Təşkilati və informasiya idarəsi digər tərəfdaşlarla birlikdə bu prosesdə iştirak edərək öz töhfələrini verməyi nəzərdə tutmuşdur.

Baş İdarədə analitik işin və qabaqlayıcı tədbirlərin daha da gücləndirilməsi, məqsədilə həssas sahələr üzrə ümumiləşdirmələr və təhlillər aparılmış, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün təkliflər irəli sürülmüşdür.

Dövr ərzində aparılan təhlil və ümumiləşdirmələr aşağıdakı sahələri əhatə etmişdir:

- ✓ Baş İdarəyə daxil olmuş sosial müdafiə sahəsində törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatların araşdırılması vəziyyəti;
- ✓ Qida təhlükəsizliyi sahəsində yol verilmiş korrupsiya hüquqpozmaları ilə əlaqədar istintaqı aparılaraq tamamlanmış cinayət işlərinin ümumiləşdirməsi, bu növ qanunsuz əməllərin törədilməsinə şərait yaradan halları müəyyən etmək və onların aradan qaldırılmasına dair təkliflərin hazırlanması;

- ✓ Cinayət işləri üzrə əmlak müsadirəsinin təmin olunması məqsədilə əmlakın müəyyən edilməsi, izlənilməsi və üzərinə həbs qoyulması vəziyyətinin öyrənilməsi və bu işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi;
- ✓ Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması ilə bağlı cinayətlərin (CM-nin 193-1 və 194-cü maddələri üzrə) istintaqı üzərində prokuror nəzarətinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin, bu kateqoriyadan olan bağlı cinayətlərin açılması üçün həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirlərinin vəziyyətinin, habelə mövcud məhkəmə təcrübəsini ümumiləşdirməsi, bununla əlaqədar işlərin səmərə və keyfiyyətinin yüksəldilməsi məqsədi ilə müvafiq tədbirlərin icrası;
- ✓ Əmək və ya xidməti müqavilə olmadan işə cəlb edilmə ilə bağlı yol verilmiş pozuntu halları üzrə ilkin araşdırma materialları və istintaqı aparılmış cinayət işlərinin vəziyyətinin ümumiləşdirilməsi;
- ✓ İlkin yoxlama materialları və müraciətlər üzrə korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə cinayət prosessual qanunvericiliyindən kənar prokuror təsir tədbirlərinin tətbiq edilməsi vəziyyətini ümumiləşdirməklə nəticəsindən asılı olaraq zəruri tədbirlərin görülməsi;
- ✓ Korrupsiya cinayətlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsi vəziyyətini təhlil etməklə bu sahəsində əməliyyat, maliyyə monitorinqi və digər qurumlarla əlaqələrin səmərəliliyinin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi.

## 1.2. KADRLARIMIZ



2019-cu ilin birinci yarım ili ərzində Baş İdarənin kadrlarla komplekt-ləşdirilməsi istiqamətində əhəmiyyətli kadr dəyişiklikləri baş vermişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2019-cu il tarixli Sərəncamı ilə Baş İdarə rəisinin müavini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsinə təyin edilmişdir.

Bundan başqa, Baş prokurorun müvafiq əmri ilə Baş İdarənin rəis müavini vəzifəsinə 1 təyinat, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin, Preventiv tədbirlər və təhqiqat idarəsinin, Əməliyyat idarəsinin, habelə Daxili təhlükəsizlik və Əməliyyat təminatı şöbələrinin rəisi vəzifələrinin hər birinə 1, Əməliyyat idarəsi rəisinin müavini vəzifəsinə isə 1 olmaqla cəmi 7 təyinat aparılmışdır.

Eyni zamanda, 1 nəfər Baş İdarənin İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi, 1 nəfər Mütəxəssis təhlilləri şöbəsinin prokuroru təyin edilmiş, 1 nəfərə Əməliyyat idarəsinin mühüm işlər üzrə əməliyyatçısı vəzifəsinin icrası həvalə edilmiş, eləcə də Preventiv tədbirlər və təhqiqat idarəsinin 2, Daxili təhlükəsizlik şöbəsinin 1 əməkdaşı icrası onlara həvalə edilmiş vəzifələrə təyin olunmaqla – cəmi 6 kadr təyinatı aparılmışdır.

Həmçinin, hesabat dövrü ərzində Baş İdarənin 2 əməkdaşı mükafatlandırma qaydasında Azərbaycan Respublikası Prokurorluğunun Fəxri Fərmanı ilə, 1 əməkdaşı vaxtından əvvəl baş ədliyyə müşaviri, 1 əməkdaş ədliyyə müşaviri, 2 əməkdaş isə kiçik ədliyyə müşaviri xüsusi rütbəsi ilə təltif edilmiş, Baş İdarənin 6 əməkdaşına təşəkkür elan edilmişdir.

Bununla yanaşı, Baş İdarənin 1 əməkdaşına kiçik ədliyyə müşaviri, 5 əməkdaşa isə I dərəcəli hüquqşünas növbəti xüsusi rütbələri verilmişdir.

## 1.3. MAARİFLƏNDİRMƏ VƏ İCTİMAİYYƏTİN MƏLUMATLANDIRILMASI







Dövr ərzində Baş İdarə tərəfindən maarifləndirmə və ictimaiyyətin məlumatladırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür.

Ümumilikdə 680 nüsxədən ibarət 12 sayda bülleten, buklet, kitablar, metodiki vəsaitlər və digər materiallar idarə tərəfindən məlumatlar yenilənməklə hazırlanaraq nəşr edilmişdir.

Belə ki, azərbaycan, rus və ingilis dillərində “Baş Prokurorluq barədə məlumat”, “Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi barədə məlumat”, “Siyasi iradə korrupsiyaya qarşı mübarizənin əsas elementi kimi”, “Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi statistik rəqəmlərlə”, “Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq” və “Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq”, “Beynəlxalq əlaqələr” adlı buklet, bülleten, jurnal və digər nəşriyyat məhsulları dərc edilmişdir.

Həmçinin, “Azərbaycan Prokurorluğu” jurnalının materialları, korrupsiyaya qarşı mübarizə sahəsində müxtəlif yerli və xarici tədbirlərin foto albomları, o cümlədən beynəlxalq konfrans üzrə materiallar toplusunun hazırlanmışdır.

Bundan başqa, Baş prokurorun "Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar işin təkmilləşdirilməsi haqqında" 28 dekabr 2001-ci il tarixli 08/174 nömrəli əmrinə uyğun olaraq hüququn müxtəlif sahələrini əhatə edən mövzular üzrə tədris məşğələləri və ya seminarlar keçirilmişdir. Keçirilmiş məşğələlərdə əsas diqqət korrupsiya haqqında, cinayət və cinayət-prosessual qanunvericiliyin, insan hüquq və azadlıqların təmin edilməsi sahəsində beynəlxalq hüquq normalarının öyrənilməsinə, eləcə də Baş Prokurorluq üzrə əmr və göstərişlərə dair məsələlərin müzakirəsinə yönəlmiş, əməkdaşlar tərəfindən milli qanunvericilikdə baş verən dəyişikliklər də daim diqqət mərkəzində saxlanılmışdır.

Bununla yanaşı, əvvəlki illərdə olduğu kimi, Baş Prokurorluğun Mətbuat xidməti vasitəsilə ictimai maraq doğuran və aktuallığı ilə seçilən Baş İdarə tərəfindən başlanılan, istintaqı aparılan cinayət işləri, həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri, habelə korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq barədə kütləvi informasiya vasitələrinə məlumatların verilməsi təmin edilmişdir.

Qeyd edilənlərdən başqa, Baş İdarədə kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilmiş mətbuat konfransında ötən il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı çıxış edən Baş İdarə rəisi Kamran Əliyev bu barədə ictimaiyyətə ətraflı məlumat vermiş, Baş İdarənin fəaliyyəti ilə bağlı ona ünvanlanmış çoxsaylı sualları cavablandırmışdır.

## 1.4 MÖVCUD DİNAMİKA

***2019-ci ilin ötən dövrü ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən digər cinayət işləri ilə yanaşı, qida təhlükəsizliyi, tikinti və şəhərsalma tələblərinin pozulması, həmçinin bank sektorunda yol verilmiş qanunsuzluqlarla əlaqədar bir sıra aktual cinayət işləri üzrə intensiv araşdırmalar aparılmışdır.***

**Dövrün əsas göstəriciləri aşağıdakı kimi olmuşdur:**

- 126 şəxs barəsində 79 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçünməhkəməyə göndərilmişdir.
- Məhkəmələrə göndərilmiş 79 cinayət işindən 59 iş maddi ziyanla əlaqədarolmuşdur.
- Vurulmuş cəmi 11 842 474 manat məbləğində maddi ziyandan ibtidaiaraşdırma mərhələsində 3595372 manat, yəni 30.35 % ziyan ödənilmişdir.
- Vətəndaşların 1955 müraciətinə: 1013 ərizə, şikayət və 942 "Qaynar xətt" əlaqəmərkəzinə daxil olmuş müraciətə baxılmışdır.
- Qaynar xətt əlaqə mərkəzi üzrə müraciətlərin 852-si (90,44%)– nəzarətdəsaxlanılmaqla aidiyyəti üzrə nazirlik, komitə və təşkilatlara göndərilmiş, 20-i(2.1%) Prokurorluğun müvafiq struktur qurumlarında, 70-i (7.43 %) Başİdarədə araşdırılmış, o cümlədən müraciətlərdən 7-si üzrə CinayətMəcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır.
- 90 cinayət xarakterli material araşdırılmış və onların 72-si üzrə cinayət işləribaşlanılmış, 18-i üzrə isə cinayət işinin başlanması rədd edilmişdir.
- Keçirilmiş 3 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 4vəzifəli şəxs cinayət başında yaxalanmışdır.
- 226 vətəndaşın qəbul edilməsi təmin edilmişdir ki, bunlardan 72-i Baş İdarə rəisi, 56-sı Baş İdarə rəisinin müavinləri, idarə və ya şöbə rəisləri, 98-i növbətçi prokurorlar tərəfindən qəbul edilmişdir.

**Müqayisə üçün, qeyd edilən göstəricilər 2018-ci ilin müvafiq dövründə aşağıdakı kimi olmuşdur:**

- 2018-ci ilin 6 ayı ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsi tərəfindən 184 şəxs barəsində 115 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmişdir.
- Məhkəmələrə göndərilmiş 115 cinayət işindən 93 iş maddi ziyanla əlaqədar olmuşdur.
- Həmin işlər üzrə vurulmuş cəmi 51.194.318 manat ziyandan ibtidai araşdırma mərhələsində 16.578.367 manat və ya 32.5 % ödənilmişdir.
- Vətəndaşların 3874 müraciətinə: 1904 ərizə, şikayət və 1970 "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətə baxılmışdır.
- "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 1826-sı (92,58 %) –aidiyyəti üzrə nazirlik, komitə və təşkilatlara göndərilməklə müraciət üzrə müvafiq tədbirlərin görülməsi təmin edilmiş, 117-si (5.85%) Baş İdarədə və Baş Prokurorluğun müvafiq struktur qurumlarında araşdırılmış, o cümlədən baxılmış müraciətlərdən 6-sı (0,30%) müraciət üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılmışdır.
- 126 cinayət xarakterli material araşdırılmış və onların 82-si üzrə cinayət işləri başlanılmış, 44-ü üzrə isə cinayət işinin başlanması rədd edilmişdir.
- Keçirilmiş 4 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 9 vəzifəli şəxs cinayət başında yaxalanmışdır.
- 250 vətəndaşın qəbul edilməsi təmin edilmişdir ki, bunlardan 54-ü Baş İdarə rəisi, 93-ü Baş İdarə rəisinin müavinləri, idarə və ya şöbə rəisləri, 103-ü növbətçi prokurorlar tərəfindən qəbul edilmişdir.

# ƏMƏKDAŞLIQ
















HƏR BİR VƏZİFƏLİ ŞƏXS ÖZ XALQINA
BAĞLI OLMALI,HƏR BİR MƏMUR
ÖZ XALQINA XİDMƏT ETMƏLİDİR.
İlham Əliyev



# II. ƏMƏKDAŞLIQ

## 2.1 BAŞ İDARƏDƏ TƏŞKİL EDİLƏN TƏDBİRLƏR

***Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi öz fəaliyyətində istər yerli, istərsə də xarici dövlət qurumlarl, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığa daim xüsusi əhəmiyyət verməkdədir. Belə əməkdaşlıq münasibətlərinin məntiqi nəticəsi olaraq Baş İdarənin inzibati binası mütəmadi olaraq yerli və beynəlxalq tədbirlərə, seminar və konfransların keçirildiyi ənənəvi məkan rolunu oynayır. Əvvəlki illərdə olduğu kimi dövr ərzində də, bu müsbət təcrübə davam etdirilmiş və Baş İdarə tərəfindən bir sıra mötəbər tədbirlər keçirilmişdir.***

### Mətbuat konfransı (15 yanvar)





Belə tədbirlərdən biri kimi Baş İdarə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2018-ci il ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilmiş mətbuat konfransını göstərmək olar.

Mətbuat konfransında cari il yanvarın 11-də Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq Baş İdarə tərəfindən korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirləri barədə geniş məlumat verilmiş, QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

## TAİEX texniki yadım aləti çərçivəsində "Normativ aktların antikorrupsiya ekspertizası" mövzusunda təlim tədbiri (7-8 fevral)



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında keçirilmiş iki günlük tədbirdə İtaliya, Litva və İsveç Krallığını təmsil edən ekspertlər Françesko Clementuççi, Romualdas Gilis və Nils Haninger tərəfindən antikorrupsiya ekspertizası institutuna dair beynəlxalq standartlar, normativ aktlarda boşluqları aradan qaldırma və onlardan sui-istifadə halların qarşısını almaq üçün tətbiq olunan metodologiya, öz ölkələrin bu sahədə ən yaxşı təcrübələri və normativ aktların analizi prosesində informasiya texnologiyalarının tətbiqi kimi mövzulara dair təqdimatlar keçirilmişdir.

Tədbirdə mövzu ilə əlaqədar tədris tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə icra edilmiş, iştirakçıları maraqlandıran suallar ətraflı müzakirə edilmişdir.

## Özbəkistan Respublikasının Tikinti nazirinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətinin səfəri (22 fevral)



Özbəkistan Respublikası Baş Prokurorluğu əməkdaşlarının da daxil olduğu nümayəndə heyəti Baş İdarənin inzibati binasında olmuş və müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, kriminalistika otağı, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar.

Görüş zamanı qonaqlara ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional tədbirlər, habelə Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermiş, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı xüsusi vurğulamışdır.

## Belarus Respublikasının İstintaq Komitəsinin nümayəndə heyətinin səfəri (15 mart)






Səfər zamanı Belarusun İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti Baş İdarənin inzibati binasında mövcud şərait və qurumun fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Qonaqlara Baş İdarənin fəaliyyəti ilə yanaşı, həm də vətəndaş-məmur təmaslarının minimuma endirilməsinə yönələn qabaqlayıcı tədbirlər, o cümlədən "ASAN xidmət" mərkəzləri barədə məlumat verərək, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi barədə ətraflı məlumat verilmişdir.

## "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar (15-17 may)



Digər bir əhəmiyyətli tədbir isə Beynəlxalq Prokurorlar Assosiasiyası və Azərbaycan Respublikası Prokurorluğunun birgə təşkilatçılığı ilə "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar olmuşdur.

Sözügedən tədbir BPA-nın vitse-prezidenti, Azərbaycan Respublikasın Baş prokurorunun müavini




Kamran ƏLİYEV və Məhkəmə Hüquq Şurasının sədri Cavid HUSEYNOV tərəfindən açılmış və insan hüquqlarının qorunmasında əsas mexanizmlərindən biri olan Azərbaycanın məhkəmə sisteminin potensialının artırılması istiqamətində daha bir addım olmuşdur.

Tədbir insan hüquqları sahəsində problemlərin öyrənilməsi, eyni zamanda bu problemlərin həlli üçün vasitələrin axtarışı habelə hüquqşünaslar arasında bu sahədə maarifləndirmə işinin aparılması və insan hüquqları ilə əlaqəli məsələlərə daha həssas yanaşmanın təbliğ edilməsi məqsədlərini daşıyırdı.

Təlimin konsepsiyası əvvəlcə BPA-nın senatoru Nicholas Kovderi tərəfindən hazırlanmışdır. Bu birgə təşəbbüsü reallaşdırmaq üçün təlimdə Beynəlxalq Prokurorlar Assosiasiyasının sabiq Prezidenti və Paris Apellyasiya Məhkəməsinin Baş prokuroru Fransua Falletti, Niderlandın Apelyasiya Məhkəməsinin böyük prokuroru, Amsterdam Universitetinin Hüquq fakültəsinin professoru Miranda de Meyer, İnsan Hüquqları





üzrə Avropa Məhkəməsinin hakimi Stanislav Pavlovski kimi yüksək səviyyəli beynəlxalq ekspertlərin iştirakı təmin edilmişdir. Həmçinin, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyev də ekspert qismində bu tədbirə qatılmışdır.

36 hakim və yüksək rütbəli prokuror, o cümlədən Ağır Cinayətlər və Appelyasiya məhkəmələrinin aparıcı hakimləri, müxtəlif istintaq orqanları tərəfindən aparılan ibtidai araşdırmaya nəzarət edən prokurorlar, dövlət ittihamçıları və Baş İdarənin prokurorları tədbirdə iştirak etməklə Avropa və Azərbaycan ekspertlərinin moderatorluğu ilə keçən müzakirələrdə fəal fikir mübadiləsinə qoşulmuşdurlar.

İki gün yarım ərzində iştirakçılar tərəfindən İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK) ilə təmzilənən məsələlər, habelə öz yurisdiksiyası ilə Azərbaycanı əhatə edən Avropa Məhkəməsinin presendent hüququ ilə bağlı mövzular öyrənilmişdir. Təqdimatlarla yanaşı tədbir çərçivəsində bir sıra praktiki məşğələlər yer almış və iştirakçılar mövzu üzrə müvafiq tapşırıqların və məsələlərin həll etmə prosesində fəal iştirak etmişlər.

Tədbirdə hakimlər və prokurorlar aşağıdakı mövzuları araşdırmışlar:

- AİHK-in 5-ci maddəsi çərçivəsində azadlıq və təhlükəsizlik hüququ, o cümlədən istintaq və ittiham strukturları arasında münasibətlər, həbs səlahiyyətləri, ibtidai araşdırma zamanı həbsin şərtləri və bu müddətdə təqsirləndirilən şəxsin hüquqlarının qorunması;
- AİHK-ın 6-cı maddəsi çərçivəsində ədalətli məhkəmə araşdırması hüququ, o cümlədən bu maddənin inzibati xətalar üzrə aparılan icraata tətbiq dairəsi, mürrəkəb istintaq prosedurları çərçivəsində məhkəməyə vaxtlı-vaxtında müraciət edilməsi və məcburiyyət tədbirlərinə dair məhkəmə nəzarəti;
- Aİ-nin İnsan Hüquqları Konvensiyasının təminatları və milli icra mexanizmləri;
- AİHK-in 8-ci maddəsi çərçivəsində, şəxsi və ailə həyatına hörmət hüququ, o cümlədən, mənfi və pozitiv öhdəliklərin idarə olunması, qanuni hədəflərin və insan hüquqları mülahizələri ilə tarazlaşdırlması, konfidensiallıq dairəsi;
- AİHK-in 11-ci maddəsinə əsasən sərbəst toplaşmaq və birləşmək azadlığı.




İştirakçılar, mövzular sırasında, Hollandiyada tətbiq olunan cinayət təqibinə alternativ proseduru mexanizminə və eyni zamanda prokurorların cinayət mühakimə sisteminin yükünün azaldılmasına böyük maraq nümayiş etdirməklə, həmçinin mobil telefonlara baxışla bağlı prosedurlarda konfidensiallığın çərçivəsinə dair müzakirələrdə fəal fikir mübadiləsini aparmışlar.

Ekspertlər AİHM işlərini təhlil edərək, Azərbaycanla bağlı qərarlara xüsusi diqqət yetirmişlər və eyni zamanda Fransız və Hollandiya cinayət ədliyyə sistemlərində islahatların aparılmasına təkan verən işlərdən nümunələr gətirmişlər.

Avropa İnsan Hüquqları Məhkəməsində çözülən son meyllər və hüquqi əsaslandırmaya həsr olunmuş mövzu iştirakçıların böyük marağına səbəb olmuşdur. İnformasiya məkanında insan hüquqları ilə əlaqəli olan məsələlər və həmçinin BMT-nin əsas Konvensiyalarının müddəalarından irəli gələn tələbləri kimi mövzular təlimin məqsədlərini tamamlamışdır. Ümumilikdə, seminar BPA üzvləri üçün gələcək İnsan Hüquqları ilə bağlı təlimlər keçirilməsinə xidmət edən uğurlu bir təcrübə kimi qiymətləndirilmişdir.

## Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru xanım Yanne Holst Hübnerlə görüş (21 may)







Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralovun dəvəti ilə ölkəmizə səfər edən Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru xanım Yanne Holst Hübner Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Assosiyasiyaya fərdi üzv qəbul edilmiş gənc prokurorluq əməkdaşları ilə görüşmüş, onlara Assosiyasiyanın fəaliyyəti haqqında ətraflı məlumat vermiş, yeni üzvləri maraqlandıran sualları cavablandırmışdır.



## Vəkillər Kollegiyası ilə korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair tədbir (28 iyun)




Qeyd edilən tədbirlərdən başqa Baş İdarənin inzibati binasında Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

İki qurum arasında əməkdaşlıq münasibətlərinin qurulmasının başlıca qayəsini vətəndaşlarımızın hüquq və azadlıqlarının səmərəli müdafiəsi təşkil edir ki, Memorandumun imzalanması son nəticədə məhz bu məqsədə xidmət edir.

## "Elektron Cinayət" proqramının tətbiqinin daha da təkmilləşdirilməsi və genişləndirilməsi ilə bağlı təqdimatlar

Müasir dövrdə Azərbaycanın davamlı və dayanıqlı inkişafı siyasətinin prioritet istiqamətlərindən olunan informasiya-kommunikasiya texnologiyalarının (İKT) sosial-iqtisadi sistemin bütün sahələrinə və insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edərək, ictimai-iqtisadi və hüquqi münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn tövsiyə və tapşırıqların icrası ölkəmizdə qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi prosesinə böyük töhfə vermiş, bu mötəbər sənədin icrası Prokurorluğun fəaliyyət istiqamətlərinin daha da təkmilləşdirilməsini labüd etməklə,



təkmilləşdirmə tədbirlərinin informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müşayiət olunmasını zəruri etmişdir.

Təkzibolunmaz faktdır ki, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi ilə Prokurorluğun fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsinə, vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına, informasiya tələbatının dolğun ödənilməsinə və digər müsbət dəyişikliklərə yol açmaqdadır.

Bu məqsədlə, "Elektron Cinayət" proqramının daha da təkmilləşdirilməsi, onun digər dövlət orqanlarına və məhkəməyə inteqrasiyası, sistemin cari funksiyalarının təkmilləşdirilərək cinayət işlərinin mümkün həddə kağız versiyasından elektron versiyaya keçid etməsi, digər dövlət qurumlarının bu barədə təcrübələrinin öyrənilməsi üçün bu sahədə ixtisaslaşmış mütəxəsislər tərəfindən Baş İdarənin müstəntiqlərinə geniş təqdimatlar keçirilmiş, onları maraqlandıran praktiki suallar ətraflı cavablandırılmışdır.

## 2.2. XARİCİ SƏFƏRLƏR

***Dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmi və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyəti nəzərə Baş İdarə tərəfindən almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim böyük önəm verilmişdir.***

### İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı üzrə 20-ci monitorinq görüşü və Şəbəkənin Rəhbər Qrupunun 24-cü görüşü (19-22 mart)

Ötən dövr ərzində ölkəmiz korrupsiyaya qarşı mübarizə sahəsində OECD ilə səmərəli əməkdaşlığını davam etdirmiş, Fransa Respublikasının paytaxtı Paris şəhərində keçirilmiş görüşlərdə Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli koordinatoru – Baş prokurorun müavini, Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.



İstanbul Fəaliyyət Planının 20-ci monitorinq görüşü zamanı ölkəmiz üzrə 2016-cı ilin sentyabr ayında İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu çərçivəsində qəbul edilmiş hesabatda nəzərdə tutulmuş tövsiyələrin icra vəziyyəti ilə bağlı Tərəqqi Hesabatı müzakirə edilərək qəbul edilmişdir.

Qeyd edilməlidir ki, IV Monitorinq Raund hesabatı üzrə ölkəmizə cəmi 31 tövsiyə ünvanlanmışdır ki, müzakirələr zamanı onların 21-nin uğurla icra edilməsi müəyyən edilmişdir. Bununla da bu monitorinq mexanizmi çərçivəsində IV Dəyərləndirmə Raundu uğurla başa çatdırılmışdır.

22 mart tarixində keçirilmiş Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Rəhbər Qrupunun 24-cü görüşü zamanı İstanbul Fəaliyyət Planı çərçivəsində hazırlanan V Monitorinq Raundunu əhatə edəcək 2020-2024-cü illər üzrə yeni İş Planının layihəsi təqdim edilmiş, həmçinin yeni dəyərləndirmə metodologiyası və Şəbəkənin maliyyə sabitliyinin təmin edilməsi məqsədilə maliyyə töhfələrinin təqdim edilmə vəziyyəti təqdim edilmişdir.

## Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupunun (GRECO) 82-ci və 83-cü plenar iclasları (18-22 mart)

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın səmərəli əməkdaşlıq etdiyi qurumlardan biri də GRECO təşkilatı olmuş, Baş İdarə rəisinin rəhbərlik etdiyi nümayəndə heyəti qeyd edilən plenar iclaslarda iştirak etmişdir.

Sonuncu plenar iclasda millət vəkilləri, hakimlər və prokurorlara münasibətdə korrupsiyanın qarşısının alınması tədbirlərinin dəyərləndirilməsini nəzərdə tutan Azərbaycan Respublikasının IV raund dəyərləndirilməsi çərçivəsində Uyğunluq Hesabatı müzakirə edilərək qəbul edilmiş, ölkəmizə ünvanlanan cəmi 21 tövsiyədən 18-nin uğurla icra edilməsi müəyyən edilmişdir.

GRECO ilə əməkdaşlıq çərçivəsində Baş İdarənin böyük prokuroru Elnur Musayev Norveç Krallığının və Şimali Makedoniya Respublikasının 4 və 5-ci raund üzrə hesabatlarında dəyərləndirici ekspert qismində çıxış etmişdir. Bununla yanaşı, cari ilin 17 iyun tarixində Fransa Respublikasının Strasburq şəhərində GRECO-nun yaradılmasının 20 illiyinə həsr olunmuş Yüksək Səviyyəli Konfrans keçirilmiş, tədbirdə ölkəmizi təmsil edən Azərbaycan Respublikasının GRECO-da nümayəndə heyətinin üzvü, Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev çıxış edərək Azərbaycanla Avropa Şurası arasında mövcud işgüzar və qarşılıqlı faydalı münasibətlər çərçivəsində GRECO ilə əməkdaşlığa ölkəmizdə verilən xüsusi diqqəti vurğulamış, həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, xüsusilə də 3 aprel 2019-cu tarixli Fərmandan irəli gələn vəzifələr barədə məlumat vermiş, bu islahatların insan hüquqları və qanunçuluğun qorunması, dövlət idarəçiliyində şəffaflığın artırılması istiqamətində mühüm addım olduğunu bildirmişdir.

## Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin 47-ci iclası (4-5 aprel)



Bundan başqa, ötən dövr ərzində Baş İdarə Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğun təşkilati üzvü və iki yüzdən artıq prokurorluq əməkdaşının fərdi üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlığını davam etdirmişdir.

Norveç Krallığının paytaxtı Oslo şəhərində keçirilən tədbirdə ölkəmizi Baş prokurorun müavini – Baş İdarə rəisi, Assosiasiyanın Vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. İclas müddətində ölkəmizlə Assosiasiya

arasında işgüzar əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi qeyd edilməklə, mövcud əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi töhfələr nəzərə alınaraq Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun Assosiasiyanın fəxri üzvü seçilməsinə dair İcraiyyə Komitəsi tərəfindən yekdilliklə qərar qəbul edilmiş, bu barədə qərarın cari ildə Argentinanın Buenos Ayres şəhərində keçiriləcək Assosiasiyanın İllik Yığıncağında təsdiq edilməsi üçün təqdim edilməsi qərarlaşdırılmışdır.

## “Hakimlər və prokurorların fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi” mövzusunda beynəlxalq konfrans (17 aprel)




Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş İdarəsi və Korrupsiyaya qarşı Mübarizə aparan Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Rusiya Federasiyasının Baş Prokurorluğu, Xarici İşlər Nazirliyi və Moskva Beynəlxalq Əlaqələr Dövlət İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən yüksək səviyyəli tədbirdə Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) Vitse-prezident qismində Assosiasiyanı təmsil edən Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.



Tədbirin yüksək səviyyəli seqmentində çıxış edən Kamran Əliyev ölkəmizdə aparılan sistemli korrupsiyaya qarşı mübarizə siyasəti, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilməkdə olan geniş məhkəmə-hüquq islahatları barədə iştirakçılara məlumat vermişdir.

## "Cəmiyyətin qlobal rəqəmsallaşması dövründə prokurorların cinayətkarlığa qarşı beynəlxalq əməkdaşlığı" mövzusunda regional konfrans (3-6 iyun)





Belarus Respublikasının paytaxtı Minsk şəhərində Belarus Respublikası Baş Prokurorluğu və Beynəlxalq Prokurorlar Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilmiş konfransda həmin ölkənin Baş prokuroru Aleksandr Konyukun dəvəti ilə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Beynəlxalq Prokurorlar Assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Kiber-terrorçuluqla mübarizə məsələlərinin müzakirəsinə həsr olunmuş 1-ci Plenar iclasa həmsədrlik edən Kamran Əliyev ölkəmizin cinayətkarlığın bu forması ilə mübarizə təcrübəsinə dair təqdimatla çıxış edərək Azərbaycanın bu sahədə formalaşdırdığı qanunvericilik və institusional baza, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının fəaliyyəti barədə iştirakçılara geniş məlumat vermişdir.

Tədbir çərçivəsində nümayəndə heyətimiz Belarusun Baş prokuroru Aleksandr Konyuk tərəfindən qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində qurumlar arasında qarşılıqlı əməkdaşlıq perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

Qeyd edilənlərdən əlavə, Baş İdarənin Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti, Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiriciləri Şəbəkəsi (EACN), Beynəlxalq Anti-Korrupsiya Qurumları Assosiasiyası (IAACA) və digər beynəlxalq və regional tərəfdaşlarla səmərəli əməkdaşlığı davam etdirilmiş, Baş İdarənin nümayəndələri bu qurumların tədbirlərində iştirak etmişlər:

## Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat-GUAM-ın korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi alt-qrupunun 20-ci iclası (23-24 may)



Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində keçirilmiş iclasda Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin böyük prokuroru Orxan Əhmədov təmsil etmişdir.

Gürcüstan, Moldova və Ukrayna dövlətlərinin nümayəndələrinin də iştirak etdiyi iclasda qarşılıqlı fikir və təcrübə mübadiləsi aparılaraq, GUAM təşkilatının üzvü olan dövlətlərin korrupsiyaya qarşı mübarizə, çirkli pulların yuyulması və bu növ cinayətlərin törədilməsində elektron ödəniş sistemlərinin və elektron pulların istifadəsinin qarşısının alınması yolları, cinayət yolu ilə əldə olunmuş gəlirlərin müəyyən edilməsi və ofşor zonalara köçürülmüş pulların qaytarılması yolları müzakirə olunmuşdur.

## "Korrupsiya qarşı mübarizə - yeni perspektivlər" mövzusunda beynəlxalq simpozium (22-25 may)




Çin Xalq Respublikasının xüsusi statuslu inzibati ərazisi olan Honq-Konqda Honq-Konqun Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Komissiyası (ICAC) və Beynəlxalq Anti-Korrupsiya Qurumları Assosiasiyasının (IAACA) birgə təşkilatçılığı ilə keçirilən simpoziumda Baş İdarənin rəis müavini Fuad Rəsulov və Təşkilati və informasiya təminatı idarəsinin rəisi Səbuhi Alıyevdən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Tədbir müddətində korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslər və yanaşmalar, effektiv qabaqlayıcı tədbirlər, şəffaflıq mühitinin formalaşdırılması və bu sahədə ictimai maarifləndirmə, hüquqpozmaların qarşısının alınması yolları, eləcə də cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası istiqamətində ən yaxşı təcrübələr müzakirə edilmişdir.

Nümayəndə heyətimizin üzvləri, həmçinin Honq-Konqun Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Komissiyası (ICAC) tərəfindən təşkil edilmiş korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı və cinayət-hüquqi, eləcə də maarifləndirmə tədbirləri istiqamətlərini əhatə edən təlimlərdə iştirak etmişlər.

## BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının İcrasının Təftişi Qrupunun 10-cu sessiyası (27-29 may), Aktivlərin bərpası üzrə hökumətlərarası işçi qrupunun 13-cü görüşü (29-30 may) və Beynəlxalq əməkdaşlıq üzrə hökumətlərarası ekspert görüşü (31 may)

Tədbirlərdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev və Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Pirayə Səmədzadə-Əliyeva iştirak etmişdir.



150-dən artıq dövlətin ekspertlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi konfransın əsas mövzusu Konvensiyanın Aktivlərin qaytarılması üzrə tədbirlərə dair V fəslinin üzv dövlətlərdə icra vəziyyəti, bu sahədə yaxşı təcrübələr, texniki yardım, bu istiqamətdə görüləcək növbəti tədbirlərin müəyyənləşdirilməsi, qarşılıqlı hüquqi yardım və əmlakın bərpası üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələlərini əhatə etmişdir.

BMT-nin Təftiş Qrupunun növbəti sessiyası çərçivəsində 2-ci təftiş dövrünün dördüncü ilində Azərbaycan tərəfindən

Macarıstanın təftiş edilməsi nəzərdə tutulur və həmin qiymətləndirmə prosesində də Baş İdarə əməkdaşının iştirakı təsdiq edilmişdir.

Həmçinin qeyd edək ki, BMT-nin eyni mövzulu ötən il baş tutan iclasında Baş idarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev və prokuroru Zenfira Məmmədova iştirak etmişlər.

## Beynəlxalq Anti-Korrupsiya Akademiyasında (IACA) təhsil






Azərbaycan Respublikası Beynəlxalq Anti-Korrupsiya Akademiyasına üzv olduğu dövrdən etibarən təşkilatın təşkil etdiyi görüşlərdə ali rəhbər vəzifəli şəxslər səviyyəsində daim iştirak etmiş və korrupsiyaya qarşı mübarizə istiqamətində qarşıya qoyulmuş vəzifələr və bu sahədə faydalı qarşılıqlı əməkdaşlıq məsələlərinə dəstəyini ifadə etmişdir. Baş İdarənin əməkdaşları mütəmadi olaraq Akademiyanın proqramlarında iştirak edirlər. Akademiyası ilə əməkdaşlığı çərçivəsində Baş İdarənin əməkdaşları Səbuhi Alıyev, Emin Nəsibov, İsfəndiyar Hacıyev, Vüqar Əhmdli, Arif Əyyubov həmin təhsil müəssisəsinin magistr pilləsində təhsilini davam etdirmiş, Teymur Novruzlu və Elnur Həsənov isə yay məktəbi kursunu müvəffəqiyyətlə bitirmişdir.

# FƏALİYYƏT















# III. FƏALİYYƏT

## 3.1. QABAQLAYICI TƏDBİRLƏR

Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətləri və hüquqpozmaların yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılmaqla preventiv tədbirlərin təsir gücü məhz bu istiqamətlərə yönəldilmişdir.

Baş İdarə əməkdaşları tərəfindən araşdırılmış ilkin yoxlama materialları və müraciətlər üzrə korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş prokuror aktlarının tətbiqindən də geniş istifadə edilmişdir. Belə ki, dövr ərzində baxılan müraciətlər üzrə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci madddəsinə müvafiq olaraq, qanun pozuntularından çəkindirmək məqsədilə 18 halda vətəndaşa rəsmi xəbərdarlıq edilmişdir.

Misal üçün göstərmək olar ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən daxil olmuş materiallar əsasında aparılmış araşdırmalar zamanı bir sıra şirkət rəhbərləri tərəfindən şəxslərin Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmələri halları müəyyən edilmişdir.

Bununla bağlı həmin şirkət rəhbərlərinə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə əsasən gələcəkdə hər hansı bir işlərin görülməsi zamanı işlərə cəlb edilmiş işçilərin hüquqlarının pozulması hallarına yol verilməməsi, əks təqdirdə barələrində daha ciddi məsuliyyət tədbirləri görüləcəyi barədə rəsmi xəbərdarlıqlar elan edilmişdir.

Bundan başqa, baxılan müraciətlər üzrə aparılan araşdırmalar zamanı 8 halda inzibati pozuntu aşkar edildiyindən, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192, 198 və 228-ci maddələri ilə inzibati xəta haqqında iş üzrə icraatların başlanması haqqında qərarlar qəbul edilərək, toplanmış materiallar aidiyyəti üzrə müvafiq icra orqanlarına və məhkəmələrə göndərilmiş, 1 xüsusat üzrə isə inzibati məsuliyyətə cəlb etmə müddəti keçdiyindən, inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilmişdir.

Həmçinin, hesabat dövründə idarədə baxılan törədilmiş və ya hazırlanan korrupsiya ilə əlaqədar hüquqpozmalara dair məlumatlar üzrə araşdırma müddətində 206.067,4 manat məbləğində maddi ziyanın ödənilməsi təmin edilmişdir.

Bundan başqa, araşdırılmış materiallardan inzibati icraat qaydasında başlanmış işlər üzrə 14.000 manat məbləğində vergi maliyyə sanksiyası və həmin işlərə məhkəmələr tərəfindən baxılaraq 5.300 manat məbləğində cərimə tətbiq olunaraq ödənilməsi təmin edilmişdir.

Bundan əlavə, aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumlarına və vəzifəli şəxslərə 34 təqdimat göndərilmişdir.

Hesabat dövründə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Res-publikası Qanununun tələblərinə müvafiq olaraq nəzarətdə saxlanılmaqla aidiyyəti üzrə yoxlanılması üçün göndərilmiş müraciətlərin baxılması nəticəsində müvafiq qurumlar tərəfindən aparılmış xidməti yoxlamalar nəticəsində vəzifəli şəxslərin hərəkətlərində aşkar edilmiş cinayət xarakterli olmayan hüquqpozmalar üzrə 4 vəzifəli şəxsə xəbərdarlıq, 9 vəzifəli şəxsə töhmət, 1 vəzifəli şəxsə şiddətli töhmət növündə intizam məsuliyyətinə cəlb edilmiş, 3 nəfər isə vəzifəsindən azad edilmişdir.

Dövr ərzində həmçinin cinayət işlərinin istintaqı zamanı bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəblər və şərait aşkarlanaraq qabaqlayıcı və profilaktik tədbirlərin görülməsi təmin edilmişdir.

Belə ki, istintaqı başa çatdırılmış işlər üzrə cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədi ilə aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə 32 təqdimat verilmiş, həmin təqdimatlara əsasən bir sıra işçilər intizam qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

İbtidai istintaq zamanı inzibati xətalar haqqında işlərlə əlaqədar cəmi 9 şəxs barəsində 9 iş üzrə icraatın başlanılması haqqında qərar qəbul edilmiş və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

## 3.2. ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİ

***2019-cu ilin 6 ayı ərzində keçirilmiş 3 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 4 şəxs cinayət başında yaxalanmış, habelə araşdırmalar nəticəsində 25 cinayət işi başlanılmışdır.***




Bununla yanaşı, 12 nəfər şəxs barəsində axtarışda olan şəxslərin tutulması barədə daxil olmuş tapşırıqlar üzrə 11 nəfər axtarışda olan şəxs tutulmuşdur ki, onlardan 8 nəfəri Baş İdarə tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində, 3 nəfər isə DİN-in əməkdaşları ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq istintaqa təhvil verilmişdir. Axtarışda olan şəxslər barəsində axtarış işləri açılmış və keçirilmiş əməliyyat-axtarış tədbirlərinin nəticələri həmin işlərdə cəmləşdirilmişdir. Yarımilliyin sonuna 4 nəfər axtarışda olmuş, onlardan 3 nəfəri ölkə hüdudlarını tərk etdiyinə görə beynəlxalq axtarışa, 1 nəfər isə yerli axtarışa verilmiş şəxslər olmuşlar.




Həmçinin, dövr ərzində Baş İdarənin idarə və şöbələrindən daxil olmuş 605 əməliyyat tapşırığı və sorğunun icrası təmin edilmişdir.

Bundan başqa, şöbə tərəfindən "Elektron hökumət" portalı və digər dövlət orqanlarının informasiya ehtiyatlarından birbaşa rejimdə istifadə vəziyyəti təhlil olunmuş və bu işin daha da təkmilləşdirilməsi üçün qarşıda duran vəzifələr nəzərdən keçirilmişdir. "Elektron hökumət" portalına aid olan bir sıra yeni bazalara qoşulmaq mümkün olmuşdur. Hesabat dövründə Baş İdarənin əməliyyat qurumlarının informasiya təminatının yaxşılaşdırılması məqsədilə digər zəruri tədbirlər həyata keçirilmiş, müvafiq dövlət orqanları ilə yaradılmış işçi qrupları çərçivəsində təşkilati işlər davam etdirilmişdir.

## 3.3. İBTİDAİ İSTİNTAQ VƏ MÜTƏXƏSSİSLƏRİN FƏALİYYƏTİ

2019-cu ilin I yarımili ərzində Baş İdarə tərəfindən 328 şəxs barəsində 208 cinayət işinin ibtidai istintaqı tamamlanaraq onlardan 316 şəxs barəsində 187 iş baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmişdir.

Məhkəmələrə göndərilmiş 187 cinayət işindən 23 iş böyük ictimai təhlükə törətməyən, 91 iş az ağır, 71 iş ağır, 2 iş isə xüsusilə ağır cinayətlər kateqoriyasına aid olmuşdur.







Məhkəmələrə göndərilmiş 316 şəxs barəsində 187 cinayət işindən 62 şəxs barəsində 37 iş mənimsəmə və israf etmə, 37 şəxs barəsində 31 iş dələduzluq, 31 şəxs barəsində 15 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 13 şəxs barəsində 8 iş vəzifə saxtakarlığı, 38 şəxs barəsində 11 iş rüşvət alma (passiv rüşvətxorluq), 50 şəxs barəsində 28 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, qalanları isə digər cinayətlərlə bağlı olmuşdur.

İstintaqı başa çatdırılmış işlər üzrə cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədi ilə aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə cəmi 32 təqdimat verilmiş, həmin təqdimatlara əsasən bir sıra işçilər intizam qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Məhkəmələrə göndərilmiş 187 cinayət işindən 139-u maddi ziyanla əlaqədar olmuş, vurulmuş cəmi 45.568.807 manat məbləğdə maddi ziyandan ibtidai araşdırma mərhələsində 14.997.651 manat və ya 32,9 %-nin ödənilməsi təmin edilmişdir.

Bundan əlavə, istintaqı başa çatdırılmış 5 cinayət işi üzrə vurulmuş ziyanın ödənilməsini təmin etmək məqsədilə təqsirləndirilən şəxslərə məxsus ümumilikdə 5.937.913 manat məbləğində əmlak üzərinə həbs qoyulmuşdur.

Eləcə də, Baş idarənin mütəxəssisləri tərəfindən cari ildə daxil olmuş cinayət işlərinin istintaqı ilə bağlı "Mütəxəssisin cəlb edilməsi haqqında" 75 qərar, təhqiqat materiallarının araşdırılması üçün 19 material icra edilmişdir.

## 3.4. AKTUALLIĞI İLƏ SEÇİLƏN BƏZİ CİNAYƏT İŞLƏRİ

***2019-cu ilin I yarımili ərzində istintaqı tamamlanmış və baxılması üçün məhkəməyə göndərilmiş cinayət işlərindən aktuallığı ilə seçilən, habelə cəmiyyətdə rezonans doğurmuş bir sıra cinayət işləri üzrə təqsirkar şəxslər məhkəmə məsuliyyətinə verilmişlər.***

Buna misal olaraq aşağıdakı cinayət işlərini göstərmək olar:

- Zaqatala rayon məhkəməsinin hakimi Arif İsmayılov tərəfindən həmin məhkəmədə məsləhətçi vəzifəsində işləyən Şahid Allahverdiyevin və Zaqatala rayon Vəkil bürosunun vəkili Məmməd Yaqubovun vasitəsilə mülki iş üzrə iddiaçının xeyrinə yekun qərar qəbul olunması üçün qanunsuz olaraq 500 manat rüşvət tələb edilməsi barədə

- Türkiyə Respublikası vətəndaşı, Yiğitdöl Hikmet Süleyman oğlunun fəaliyyəti yüksək mərtəbəli yaşayış binalarının tikintisini həyata keçirməkdən ibarət olan "Hom-Paş Prestij" MTK-nın sədri vəzifəsində işləyərkən Bakı şəhərində inşa etdiyi yaşayış binasında artıq başqasına satılmış mənzil və qeyri yaşayış sahələrini aldatma və etibardan sui-istifadə etmə yolu ilə təkrarən başqa şəxslərə satması barədə
- Abşeron rayonu, Bakı şəhərinin Səbail, Qaradağ və Xəzər rayonları ərazisində yerləşən əhəngdaşı yataqlarında istismar işləri aparan fiziki və hüquqi şəxslər tərəfindən karxanaların istismarı müddətində norma və qaydalara riayət edilməməsi faktları ilə bağlı
- Qeyd edilən cinayət işlərindən başqa ötən dövr ərzində Dövlət Gömrük Komitəsinin müxtəlif struktur qurumlarında işləyən vəzifəli şəxslərinin barəsində 11 cinayət işi üzrə istintaq aparılmışdır. Dövlət Gömrük Komitəsinin vəzifəli şəxslərinin barəsində olan 11 cinayət işindən 8-i 2018-ci ildə, 3-ü isə 2019-cu ildə başlanaraq icraata daxil olmuşdur. Onlardan 9 cinayət işinin ibtidai istintaqı tamamlanmış, 13 şəxs barəsində 8 cinayət işi baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, 1 cinayət işinin icraatına isə Azərbaycan Respublikası CPM-nin 39.1.2-ci maddəsinə əsasən xitam verilmişdir. Məhkəmə məsuliyyətinə verilmiş 13 şəxsdən 10-u Dövlət Gömrük Komitəsinin müxtəlif struktur qurumlarında işləyən vəzifəli şəxslər, 3-ü isə həmin vəzifəli şəxslərlə cinayət əlaqəsinə girmiş digər şəxslər olmuşdur.
- Bundan başqa, Vergilər Nazirliyinin müxtəlif struktur qurumlarında işləyən vəzifəli şəxslər barəsində 9 cinayət işi üzrə istintaq aparılmışdır. Həmin cinayət işlərindən 4-ü 2018-ci ildə, 5-i isə 2019-cu ildə başlanaraq icraata daxil olmuşdur. Onlardan 6 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmişdir. Həmin işlər üzrə 8 şəxs məhkəmə məsuliyyətinə verilmişdir ki, onlardan 6-ı Vergilər Nazirliyinin müxtəlif struktur qurumlarında işləyən vəzifəli şəxslər, 2-i isə həmin vəzifəli şəxslərlə cinayət əlaqəsinə girmiş digər şəxslər olmuşdur.
- Habelə, dövr ərzində Baş İdarədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyindən daxil olmuş materiallar əsasında başlanmış və sonra həmin işlərdən ayrılmış 10 cinayət işi üzrə istintaq aparılmışdır. Həmin cinayət işlərindən 2-si 2018-ci ildən qalıq qalmış digərləri isə 2019-cu ildə icraata qəbul edilmişdir.
- Məhkəmə məsuliyyətinə verilmiş şəxslərdən 2-si Qida Təhlükəsizliyi Ağentliyinin tabeliyində olan qurumlarda çalışan əməkdaşlar olmuşdur.
- cümlədən, 2019-cu ilin birinci yarısında Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olmuş material əsasında başlınmış 8 cinayət işi üzrə istintaq aparılmışdır. Həmin cinayət işlərindən 4-ü 2018-ci ildən hesabat dövrünə qalıq qalmış 4 iş isə 2019-cu ildə başlanaraq icraata qəbul edilmişdir.

# İNFOQRAFİKA





















# VƏTƏNDAŞ QƏBULU

| | 2019-cu ilin I yarımili | 2018-ci ilin I yarımili |
|---|---|---|
| Baş İdarə rəis: | 93 | 54 |
| Baş idarə rəisinin müavini, idarə və şöbə rəisləri | 83 | 93 |
| Təşkilati və informasiya idarəsinin prokurorları | 133 | 103 |
| Cəmi: | 309 | 250 |


CİNAYƏT XARAKTERLİ MATERİALLAR
2019-cu ilin birinci yarımilliyində araşdırılmış cinayət xarakterli materiallara dair
9% MƏNİMSƏMƏ
SƏHLƏNKARLIQ 0%
11% SAXTA SƏNƏD
RÜŞVƏT 4%
80% VƏZİFƏDƏN SUİ-İSTİFADƏ ETMƏ
DƏLƏDUZLUQ 28%
18% DİGƏRLƏRİ


CİNAYƏT XARAKTERLİ MATERİALLAR
2018-ci ilin birinci yarımilliyində araşdırılmış cinayət xarakterli materiallara dair
6% MƏNİMSƏMƏ
SƏHLƏNKARLIQ 0%
6% SAXTA SƏNƏD
RÜŞVƏT 3%
36% VƏZİFƏDƏN SUİ-İSTİFADƏ ETMƏ
DƏLƏDUZLUQ 21%
28% DİGƏRLƏRİ

# QABAQLAYICI TƏDBİRLƏR

| | 2019-cu ilin I yarımili | 2018-ci ilin I yarımili |
|---|---|---|
| Ümumi təqdimatlar | 66 | 78 |
| PTTİ təqdimat | 31 | 47 |
| DTŞ təqdimat | 3 | 3 |
| İİ təqdimat | 32 | 28 |
| PTTİ xəbərdarlıq | 18 | 23 |
| İnzibati icraat başlama İİ | 9 | 1 |
| İnzibati icraat başlama RTİİ | 8 | 13 |

# ƏMƏLİYYAT QURUMLARININ FƏALİYYƏTİ

| | 2019-cu ilin I yarımili | 2018-ci ilin I yarımili |
|---|---|---|
| Başlanmış cinayət işləri cəmi | 25 iş | 9 iş |
| Əməliyyat tədbiri | 3 əməliyyat tədbiri 4 şəxs barəsində | 4 əməliyyat tədbiri 9 şəxs barəsində |
| Fakta görə | 22 | 5 |
| Əməliyyat tapşırığı | 812 | 613 |
| Axtarışda olanlar | 4 (3 beynəlxalq, 1 yerli) | 9 (2 beynəlxalq, 7 yerli) |
| Axtarışla tutulanlar | 11 | 9 |

## İSTİNTAQ İDARƏSİNİN FƏALİYYƏTİ

| | 2019-cu ilin I yarımili | 2018-ci ilin I yarımili |
|---|---|---|
| Cinayət işlərinin sayı | 187 | 115 |
| Törədən şəxslərin sayı | 316 | 184 |
| Ağır Cinayət Məhkəmələrinə Cinayət işlərinin sayı | 70 | 36 |
| Ağır Cinayət Məhkəmələrinə tutulmuş şəxslərin sayı | 142 | 82 |
| Rayon Məhkəmələrinə Cinayət işlərinin sayı | 117 | 79 |
| Rayon Məhkəmələrinə tutulmuş şəxslərin sayı | 74 | 102 |

## İSTİNTAQ İDARƏSİNİN FƏALİYYƏTİ

*(məhkəmələrə göndərilmiş cinayət işlərinin təsnifatı)*

**2019-cu ilin I yarımili**

| | |
|---|---|
| Mənimsəmə | 20 % |
| Səhlənkarlıq | 1 % |
| Sənədləri saxtalaşdırma | 5 % |
| Vəzifə saxtakarlığı | 4 % |
| Rüşvət alma | 6 % |
| Rüşvət vermə | 15 % |
| Vəzifədən sui-istifadə etmə | 8 % |
| Dələduzluq | 17 % |
| Digərləri | 24 % |

# İSTİNTAQ İDARƏSİNİN FƏALİYYƏTİ

*(məhkəmələrə göndərilmiş cinayət işlərinin təsnifatı)*

**2018-ci ilin I yarımili**

| Mənimsəmə | Səhlənkarlıq | Sənədləri saxtalaşdırma | Vəzifə saxtakarlığı | Rüşvət alma |
|---|---|---|---|---|
| 36 % | 3 % | 4 % | 2 % | 2 % |

| Rüşvət vermə | Vəzifədən sui-istifadə etmə | Dələduzluq | Digərləri |
|---|---|---|---|
| 8 % | 10 % | 26 % | 9 % |

# AZƏRBAYCAN RESPUBLİKASI BAŞ PROKURORUNUN MÜVAFİQ ƏMRLƏRİ İLƏ HƏVƏSLƏNDİRİLMİŞ ƏMƏKDAŞLARIMIZ

## VAXTINDAN ƏVVƏL NÖVBƏTİ XÜSUSİ RÜTBƏ:



**Əmir Ocaqverdiyev**
**Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru**



**Musa Hacıyev**
**Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru**

**Vüqar Vahabov**
**Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı**



**İlkin Mustafayev**
**İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi**

## TƏŞƏKKÜR:



**Ceyhun Rzayev**
**İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi**



**Rüfət Kərimov**
**Əməliyyat idarəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı**



**İlkin İsmayılov**
**Daxili təhlükəsizlik şöbəsinin prokurororu**

**Nazim Rəşidov**
**İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi**





**İlqar Səfərov**
**İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi**